


## Vergi Məcəlləsinə 2016-cı ildən qüvvəyə minəcək dəyişikliklər barədə

# Aksizli malların dövriyyəsinə nəzarət

Aksizli malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi, aksizli mallar üzərində vergi nəzarəti ilə bağlı Vergi Məcəlləsinin 23-cü, 50-ci və 150-ci maddələrinə dəyişikliklər edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 7 dekabr tarixli Fərmanı ilə Aksiz markası ilə markalanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi Qaydaları təsdiq edilmişdir.

Qaydaların məqsədləri üçün aksiz markaları ilə markalanmalı olan mallara (iaşə xidməti göstərilən obyektlərdə qablaşdırılmadan satılan mallar istisna olmaqla) içməli spirt, spirtli içkilərin bütün növləri, pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli digər içkilər, tütün məmulatları daxildir.

Qeyd olunan aksizli malların (tütün məmulatlarının pərakəndə satışı istisna olmaqla) satılması və satış məqsədi ilə alınması zamanı həmin malların dəyərinin nağd qaydada ödənilməsinə yol verilmir.

Aksizli malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi qaydalarının tələblərini pozan şəxslərin məsuliyyət daşımaları barədə müddəalar İnzibati Xətalar Məcəlləsinə və Cinayət Məcəlləsinə əlavə edilmişdir.

✦ İnzibati Xətalar Məcəlləsinin 229.2-ci maddəsinə əsasən (tütün məmulatlarının pərakəndə satışı istisna olmaqla) aksiz markaları ilə markalanmalı olan məhsulların (malların) nağd qaydada az miqdarda (50 manatadək) satılması, belə məhsulların (malların) satış məqsədləri üçün nağd qaydada az miqdarda (50 manatadək) alınması 100 manat miqdarında cərimənin tətbiq edilməsini nəzərdə tutur.

✦ Cinayət Məcəlləsinin 213-1.3-cü maddəsinə əsasən tütün məmulatlarının pərakəndə satışı istisna olmaqla, aksiz markası ilə markalanmalı olan məhsulları (malları) nağd qaydada xeyli miqdarda (50 manatdan 1000 manatadək) satma, belə məhsulları (malları) satış məqsədləri üçün nağd qaydada xeyli miqdarda alma 1000 manatdan 2000 manatadək miqdarda cərimə və ya 1 ilədək müddətə islah işləri və ya 1 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

✦ Cinayət Məcəlləsinin 213-1.4-cü maddəsinə görə isə eyni əməllər külli miqdarda (1000 manatdan yuxarı) törədildikdə 2 ilədək müddətə islah işləri və ya 2 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

# Müdrik deyimlər

❖Sizə nə edəcəyinizi deyə bilərlər, amma nə düşünəcəyinizi əsla.

**Sokrat.**

❖Cünahlar insanların üzlərində görünsəydi güzgülər satılmazdı.

**R. Ustinov.**

❖Öz-özünü bəyənən özünü heç kimsəyə bəyəndirə bilməz.

❖Dəliliyin ilk dərəcəsi özünü ağıllı bilməkdir.

**M. T. Sidqi.**

❖Salamatlığın ən böyük düşməni xudpəsəndlik və şöhrətpərəstlikdir.

**M. Ə. Talıbov.**

❖Özünə məftun donuz olmaqdansa, bədbəxt adam olmaq yaxşıdır.

**H. Heyne.**

❖Xudpəsənlik canlı varlığın ən böyük yoxsulluğudur.

**İ. F. Şiller.**

❖Zatı söyüd olanın barını gözləmə.

**Azərbaycan atalar sözü.**

❖Cahil firavanlığa yetsə də onu əldə saxlaya bilməz: axı, ölçü-biçini itirəndə bəxtəvərlik öz-özünü boğur.

**L. A. Seneka.**

❖Şöhrətpərəstlik adamları təbii olmaqdan məhrum edir.

**L. Vovenarq.**

❖Özünə pərəstiş edənlər həqiqəti dərk edə bilməzlər.

**M. N. Eynəlüzzət.**

❖Şəhvətə, ehtiyaca qul olan kimsə satın alınmış quldan yazıqdır.

**Əli bin Əbu Talib.**

❖Şöhrət uca qayadır, ilan oraya sürünə-sürünə, qartal isə bir dəfə qanad çalmaqla çıxar.

**A. Kunanbayev.**

❖Üç şey insanı həlak edər: arzu və həvəsə uymaq, tamah əsiri olmaq, insanın özünü bəyənməsi.

**Məhəmməd Peyğəmbər.**

❖Dostların dar gündə tanındığını deyirlər, zənnimcə onlar insanın xoş anlarında da tanınırlar.

**Ç. Aytmatov.**

❖Şöhrətə uyan adam çörəksiz qalar, çörəyə xəyanət edən köynəksiz.

**Azərbaycan atalar sözu.**

❖Alim öz biliyini gizlətməyə çalışır, axmaq isə onunla lovğalanır.

**S. Qussek.**

❖Kim onu tanıyan adam qarşısında lovğalanırsa özünü gülüş hədəfinə çevirir.

❖Həddindən artıq şöhrətpərəstlik insanın ağlını çaşdırır və o qarşıdan gələn təhlükəni görmür.

**Ezop.**

❖Lovğa və təkəbbürlü adamı heç vaxt əxlaqlı adam hesab etmək olmaz.

**H. Zərdabi.**

❖Az bilmək və özünü çox bilən göstərmək xəstəlikdir, yalnız bu xəstəliyi başa düşməklə ondan xilas ola bilərsən.

**A. M. Lamartin.**

❖Çox oxuyan yox, faydalı kitabları oxuyan əsl alim ola bilər.

**A. Kirilli.**

❖Bilikdə irəli gedib tərbiyədə geri qalanlar irəli deyil, geri gedirlər.

**Aristotel.**

❖Əriməyən buz olmadığı kimi, əbədi xoşbəxtlik də yoxdur.

**A. Gertsen.**

❖Min daş-qaşın olunca, bir ağıllı başın olsun.

**Tatar atalar sözü.**

# Əlavə Dəyər Vergisinə (ƏDV) edilən dəyişikliklər

Vergi Məcəlləsinin əlavə dəyər vergisinə aid 155-ci, 158-ci və 159-cu maddələrinə dəyişiklik edilmiş, 164-cü maddəyə (vergi ödəməkdən azad edilmə) əlavələr edilmişdir.

1. Dəyişikliyə əsasən ƏDV-nin məqsədləri üçün ərizə vermə öhdəliyini yaradan vergi tutulan əməliyyatların həcmi 120.000 manatdan 200.000 manatadək, ƏDV qeydiyyatının ləğvi üçün vergi tutulan əməliyyatların həcmi 60.000 manatdan 100.000 manatadək artırılmışdır.

Vergi Məcəlləsinin dəyişiklikdən əvvəl qüvvədə olan 155.1-ci maddəsinin müddəalarına əsasən sahibkarlıq fəaliyyəti göstərən və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatlarının həcmi 120.000 manatdan artıq olan vergi ödəyiciləri ƏDV-nin məqsədləri üçün qeydiyyata alınırdılar.

Yeni dəyişikliyə əsasən sahibkarlıq fəaliyyəti göstərən və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan vergi ödəyicilərinin ƏDV-nin məqsədləri üçün qeydiyyata alınması nəzərdə tutulur.

Eyni zamanda bir əqd və ya müqavilə üzrə əməliyyatın ümumi dəyəri 200.000 manatdan artıq olduqda (əvvəl bu məbləğ 120.000 manat idi), bu əməliyyat ƏDV tutulan əməliyyat sayılır və həmin əməliyyatı həyata keçirən şəxs bu əməliyyatın aparıldığı gündədk ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludur.

Bununla yanaşı ƏDV qeydiyyatının ləğvi üçün vergi tutulan əməliyyatların həcminin 60.000 manatdan 100.000 manatadək artırılması ƏDV qeydiyyatında olan şəxslərə ƏDV qeydiyyatının bu meyar üzrə ləğv edilməsinə və sadələşdirilmiş vergitutma metodunu tətbiq etmələrinə şərait yaradacaqdır.

2. Vergi Məcəlləsinin dəyişiklikdən əvvəl qüvvədə olan 164.2-ci maddəsinə əsasən konkret sahənin inkişafını təmin etməklə konkret dövr üçün nəzərdə tutulan, istehsal ehtiyaclarını yerli xammal hesabına ödəmək mümkün olmadıqda, istehsal təyinatlı xammal və müasir texnologiyanı təmin edən avadanlıqların idxalı Nazirlər Kabinetinin qərarı ilə ƏDV-dən azad edilə bilərdi.

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə prioritet sahələr üzrə idxalda ƏDV-dən azadolmaların siyahısı Vergi Məcəlləsinə daxil edilmişdir.

**10 SAYLI ƏRAZİ VERGİLƏR İDARƏSİ.**

# İdmançılar üçün seminar-müşavirə təşkil olunmuşdur

Qəbələdə Azərbaycan Cüdo Federasiyasının təşkilatçılığı ilə (ACF) region rayonlarında (Qəbələ, İsmayıllı, Şamaxı, Oğuz və Ağsu) çalışan cüdo məşqçiləri və idmançıları üçün seminar- müşavirə keçirilmişdir. "Qəbələ" Futbol Akademiyasının binasında yerləşən yeni cüdo zalında təşkil edilən seminar-müşavirədə regionda cüdonun problemləri və onların həll yolları müzakirə olunmuş, məşqçi-müəllimlərin təklifləri dinlənilmişdir. Müşavirədə "Qəbələ" idman klubunun rayonda cüdonun inkişafı sahəsində gördüyü işlər xüsusi vurğulanmışdır.

Sonda klubun məşqçisi Rail İsmayılov regionun koordinatoru təyin edilmişdir.

**«Qəbələ».**

# "Qəbələ" klubu ilin ən yaxşı idman təşkilatı elan olunmuşdur

Gənclər və İdman Nazirliyi tərəfindən "Qəbələ" klubu ilin ən yaxşı idman təşkilatı elan olunmuşdur.

Yola saldığımız ildə fərqlənən idmançılar, idman klubları, məşqçilər və komandalar dekabrın 24-də Gənclər və İdman Nazirliyi tərəfindən mükafatlandırılmışdır. Ölkəmizin idman həyatında 2015-ci ildə qazandığı uğurlarına görə Gənclər və İdman naziri bu məqsədlə keçirilən mərasimdə "Qəbələ" idman klubunu ilin ən yaxşı idman təşkilatı elan etmişdir.

## ELAN

Qəbələ Rayon Polis Şöbəsi tərəfindən 22 iyun 2012-ci il tarixdə Qəbələ şəheri İ. B. Qutqaşınlı küçəsi ev № 28, mənzil № 3-də yaşayan Eyvazov Elvin Elbrus oğlunun adına verilmiş seriyası AZE, 09214128 №-li Azərbaycan Respublikası Vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ Rayon İncəsənət Məktəbinin kollektivi iş yoldaşları **Mehman** və **Səyyarə Quliyevlərə**, əzizləri **KUBRA XANIMIN** vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir və kədərləndiyini bildirirlər.